**MƏDƏNİYYƏT DÜNYASI**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025**
**МИР КУЛЬТУРЫ**
**Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025**
**THE WORLD OF CULTURE**
**Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025**

**UOT 73/76**
**ORCID: 0009-0009-1141-0682**
**https://doi.org/10.52094/ZXIS7662**

**Leyla Abuşova Ramiz qızı**
**Azərbaycan Rəssamlıq Akademiyası**
**dissertant**
**leylashka_adra@mail.ru**

# XALQ RƏSSAMI BABA ƏLİYEVİN YARADICILIĞINDA MƏNZƏRƏ JANRININ BƏDİİ-ESTETİK XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Baba Əliyevin mənzərə janrında yaratdığı əsərlər Azərbaycan təsviri sənətinin XX əsrdə keçdiyi inkişaf yolunun mühüm mərhələlərindən birini təşkil edir. Onun əsərləri yalnız vizual gözəllik təqdim etmir, həm də milli mədəniyyətin və təbiət sevginin sənət vasitəsilə ifadəsini göstərir.

Baba Əliyev rəngkarlıqda özünəməxsus üslubu ilə seçilir: rəng tonlarının harmonik keçidləri, işığın təbiətdə yaratdığı ovqatı tutmaq bacarığı və kompozisiyanın bütövlüyünü qoruyan quruluşu onun mənzərələrinə xüsusi dərinlik qazandırır. Rəssam təbiətin müəyyən bir anını, yəni günəşin batışını, çölün sakitliyini, dağların yüksəlişini və ya dənizin dalğasını incə müşahidəçilik və bədii duyumla təqdim edərək tamaşaçının yaddaşında silinməz təəssürat yaradır. Bu baxımdan onun mənzərələri həm realist təsvirin dəqiqliyini, həm də romantik-ekspressiv ovqatı özündə birləşdirən nadir nümunələrdir.

Baba Əliyevin yaradıcılığında təbiətin poetik görüntüsü ilə yanaşı, insan fəaliyyəti və müasir həyatın elementləri də öz əksini tapır. Rəssamın mənzərələri Azərbaycan təsviri sənətində həm texniki ustalığın, həm də emosional zənginliyin harmoniyasını təcəssüm etdirir. Onun əsərləri milli rəngkarlıqda yeni estetik düşüncənin formalaşmasına təkan vermiş, mənzərə janrını yalnız dekorativ təsvir yox, bədii-emosional məkan kimi təqdim etməklə sənətin inkişafında mühüm mərhələ yaratmışdır. Bu mənzərələr gələcək nəsillər üçün həm sənətkarlıq nümunəsi, həm də milli mədəni irsin qiymətli parçası kimi əhəmiyyətini qorumaqdadır.

**Açar sözlər:** Baba Əliyev, rəssam, bədii üslub, təsvir, mənzərə janrı, təbiət, realizm, rəngkarlıq, kompozisiya, işıq və rəng münasibətləri.

XX əsrin ortalarında Azərbaycan təsviri sənətində mənzərə janrı yeni estetik axtarışların və milli koloritin bədii ifadə vasitəsinə çevrilmişdi. Bu dövrdə fəaliyyət göstərən rəssamlar içərisində Baba Əliyev öz fərdi üslubu, rəng duyumu və təbiətə bədii baxışı ilə seçilirdi. Onun mənzərə janrında yaratdığı əsərlər təkcə təbiət təsvirinin gözəlliyi ilə deyil, həm də məkanın ruhunu, zamanın nəfəsini və insan duyğularının təbiətlə vəhdətini ifadə etməsi ilə dəyərlidir. Baba Əliyev mənzərəni yalnız məkan kimi deyil, emosional və fəlsəfi məzmun daşıyan bir bədii hadisə kimi dəyərləndirirdi. Onun yaradıcılığında Azərbaycan təbiətinin geniş panoramaları Xəzər dənizinin dalğalı səthindən tutmuş, Muğanın sakit çölləri və Çuxuryurdun dağ mənzərələrinədək rəng və işığın harmoniyası içində canlanır. Rəssamın bu janrdakı əsərləri milli təsviri sənətin inkişafında həm texniki mükəmməlliyi, həm də bədii dərinliyi ilə xüsusi mərhələ kimi qiymətləndirilir.

Baba Əliyevin yaradıcılığı Azərbaycan rəngkarlığının formalaşdığı mühüm bir mərhələyə 1940-1970-ci illərin sənət mühitinə təsadüf edir. Bu dövrdə realizm ənənələri ilə yeni ifadə vasitələrinin vəhdəti axtarılır, rəssamlar təbiətin sadəcə xarici görünüşünü deyil, onun ruhunu, daxili enerjisini də ifadə etməyə çalışırdılar. Baba Əliyev də bu estetik yönü davam etdirərək mənzərə janrını öz bədii dünyagörüşünün əsas istiqamətlərindən birinə çevirmişdir. O, təbiətə yalnız müşahidəçi baxışı ilə deyil, həm də daxili duyğuların güzgüsü kimi yanaşmışdır. Rəssamın Moskva Rəssamlıq İnstitutunda aldığı akademik təhsil ona realist təsvir vərdişləri qazandırsa da, sonrakı illərdə o, realizmi sadə surətçilikdən çıxararaq bədii-emosional məzmunla zənginləşdirmişdir. Onun mənzərələrində təbiət nə sakit və statik, nə də təsadüfi bir görüntüdür – əksinə, hər tablo müəyyən ovqatın, düşüncənin və milli ruhun ifadəsinə çevrilir.

Baba Əliyevin mənzərələrində rəng və işıq münasibətləri onun bədii düşüncəsinin əsas açarı kimi çıxış edir. Rəssam təbiətin müxtəlif zamanlarını günəşin doğuşu və batışını, dəniz səthinin hərəkətini, dağ havasının şəffaflığını və çölün sakitliyini rəngin emosional gücü vasitəsilə canlandırır. Onun palitrası adətən təbii tonlarla zəngindir, lakin bu təbiilik sadəlik deyil, dərinlik daşıyır: tonlar arasındakı yumşaq keçidlər, işığın səthdə yaratdığı ritmik oyunlar əsərlərinə canlı təəssürat qazandırır. Baba Əliyev kompozisiya quruluşunda

balans prinsipinə ciddi riayət edir. Əsas obyektlər (ağac, suyun səthi, dağın silueti və s.) təsadüfi deyil, tamaşaçının baxışını mərkəzə yönəldən düşünülmüş bir strukturda yerləşdirilir. O, klassik realizmin kompozisiya sabitliyini romantik duyğu ilə birləşdirir, bu da onun əsərlərinə həm sükunət, həm də daxili hərəkət hissi verir.

Baba Əliyevin yaradıcılığında portret, natürmort janrı və sujetli kompozisiyalar üstünlük təşkil etsə də, mənzərə janrı təbiətə, məkanlara, işığa yönəlmiş düşüncə və rəng anlayışı baxımından xüsusi əhəmiyyət kəsb edir. Mənzərə janrında sənətkar özünü eyni ustalıqla həm lirik, həm də ekspressiv ruhlu tabloları yaratmağı bacaran müəllif kimi tanıtmışdır. Rəssamın müxtəlif illərdə çəkdiyi “Çay qırağında” (1951), “Otlaq” (1963), “Xəzər sashilində axşam” (1964), “Dağlar” (1965), “Çuxuryurd” (1965), “Tut ağacı” (1965), “Mənzərə. Şahdağ” (1963) kimi mənzərə janrında işlənmiş tabloları ilk öncə rəssamın incə rəng hissiyatına malik olmasından və bunun vasitəsilə həm forma, həm də həcmi, məkanı qurmağı bacaran bir sənətkar olduğunu təsdiqləyir. Bu peşəkar ifadə vasitələrinin köməyi ilə rəssam mənzərə janrında qarşısına qoyduğu müxtəlif, çox zaman bir-birindən fərqli vəzifələrin öhdəsindən məharətlə gəlməyi bacarırdı.

Baba Əliyevin mənzərə əsərlərində əsas xüsusiyyətlərdən biri rəngin və işığın effektli istifadəsidir. Məsələn, onun Xəzər dənizi sahillərini təsvir edən əsərlərində günəşin doğuşu və ya batışı, suyun səthində əks olunan işıq fonu xüsusi vurğulanır. Kompozisiya baxımından əsərlər çox vaxt açıq perspektivdə qurulur, bu isə təbiətin genişliyini və dərinliyini daha da vurğulayır.

Rəssamın mənzərələrində həm də insan fəaliyyəti ilə bağlı motivlər müşahidə olunur. Baba Əliyevin mənzərə janrında olan əsərlərinin mövzu seçiminə diqqət yetirdikdə onun həm təbiətin müxtəlif guşələrini, həmçinin də sənaye və ya insan fəaliyyəti ilə bağlı mövzularını əks etdirdiyini görə bilərik. Bu, sənaye obyektləri, kənd təsərrüfatı və kənd həyatının mənzərələrdə əks olunması ilə açıq görünür. Bu cür əsərlər rəssamın həm təbiəti, həm də müasir həyat elementlərini birləşdirə bilmə bacarığını göstərir. Texniki cəhətdən sənaye landşaftını təqdim edən “Mədəndə” əsərində rəssam mənzərə janrını sadəcə gözəllik təsviri kimi deyil, həmçinin müasir sənaye mühiti kontekstində işləyir. Yəni mənzərə janrından kənara çıxmadan sənaye elementini təbiətlə birləşdirir.

Onun 1951-ci ildə işlədiyi “Çay qırağında” əsəri öz dövrünün gerçəkliklə vəhdət təşkil edən ifadə formalarını çox dəqiq, sərrast şəkildə ifadə etsə də,

sonrakı mənzərələrində ekspressiv formaları daha üstün tutan rəssam, nisbətən iri yaxmalardan istifadə etməyə başlamış, realistik ifa tərzini romantik, duyğu yüklü görünüşlə əvəz etmişdir. Bu isə öz növbəsində onun üslubunda konkret mərhələlərə işarə edərək, 1950-ci illər realist-təmsilçi yönümlü, 1960-cı illər romantik-ekspressiv meyllərlə zənginləşmiş dövr kimi qiymətləndirilməsinə əsas verir.

Rəssamın 1963-cü ilə aid "Muğanda" əsərində mənzərə motivi olaraq çöl və dağ mənzərələrini dolğun lirik görüntü kimi təqdim etməsi, rənglərin təbii harmoniyası ilə tamaşaçının ruhunu oxşayan təbiətə müxtəlif duyğu yüklü baxışını əks etdirir. Həzin təbiət guşəsi, açıq səma, istifadə olunan sadə formalar, sakit rəng palitrası ilə lirik-romantik əhval-ruhiyyə yaradır.

1964-ci ilə aid "Xəzər sahilində axşam" əsərində üfüqi xətt boyunca uzanan dəniz sahili, tünd göy rəngin fonunda sahildəki qaylara çırpılan ləpələrin ağ köpüklər vasitəsilə təsviri ilə xüsusi ekspressivlik və dərin hiss edilən emosionallıq yaratmağa nail olan rəssam, dəniz və sahil mənzərəsinin harmonik təsviri, işıq və kölgə oyunları ilə kompozisiyanı daha da zənginləşdirilmişdir. İri yaxmalarla və orta ölçülü fırça hərəkətləri ilə dalğa formasının dinamizmi vizual həyəcan yaradır. Kadr sahil boyunca geniş perspektivlə açılır. Bu, məkanı "mənzərəni içində yaşama" hissi ilə təmin edir. Bu əsər təkcə sahilin, dalğalanan dənizin yox, həm də həyatın bir fraqmenti təəssüratını bağışlayır. Çərçivə ilə məhdudlaşmış bu tablo xüsusi texnika vasitəsilə elə təqdim olunub ki, sanki sərhədsizliyi, gözün görmə bucağı boyunca uzanan dənizi xəyal etməyə imkan verir. Beləliklə, məhdud bir məkan deyil, yüzlərlə kilometr uzanan sahil göz önündə canlanır. Bu əsər vasitəsilə Baba Əliyev mənzərə janrında yalnız real bir anın görüntüsünü deyil, həm də bu anın içində olma hissiyatını, coşğun ruh halını yarada bildiyini göstərmişdir.

Dağ mənzərəsi motivi ilə yüksəklik və güclü dərinlik hissi yaradan "Çuxuryurd" əsərini 1965-ci ildə işləyən Baba Əliyev burada soyuq tonlardan, daha sərt konturlar və iri yaxmalardan istifadə edərək fərqli hiss-təcrübələr yaraşadan müxtəlif məkan kompozisiyasını qurmağa nail olmuşdur.

Kənd mənzərələrinin müxtəlif motivlərini yaradan sənətkar özünün bir çox mənzərələrində Azərbaycan torpağının bərəkətli görkəmini əks etdirərək, məkanın və atributların forma və fakturasını düzgün əks etdirən dekorativ rənglərə üstünlük verir. Baba Əliyevin mənzərə yaradıcılığı məzmun müxtəlifliyi, motiv və boyakarlıq həllinin zənginliyi ilə fərqlənir. Rəssam

tərəfindən yaradılmış mənzərə əsərləri forma və rəng baxımından çox təbii və realdır, lirika və duyulası məhəbbətlə aşılanmışdır.

Mənzərə davamlı olaraq Baba Əliyevin ən sevimli janrlarından olub. Buna görə də təəccüblü deyil ki, o, yaradıcılığının kamil illərində də bu janra tez-tez müraciət edir. Təbiət mənzərələri rəssamın öz diyarının füsunkar təbiətinə vurğunluğunun, insanı ən azı təəccübləndirə biləcək möcüzəvi guşələrin kətan üzərinə köçürülərək əbədiləşdirmək istəyinin nəticəsi kimi qiymətləndirilir. Naturada, plenerdə işləmək, gördüklərini əsərlərində bilavasitə canlandırmaq rəssamın güclü müşahidəçilik qabiliyyətindən xəbər verir.

Baba Əliyevin mənzərə janrında yaratdığı əsərlərdə bir neçə mühüm cəhət önə çıxır. Məsələn rəssamın palitrasında rəng tonları çox parlaq olmasa da, kifayət qədər təbii və inandırıcıdır. Kompozisiya seçimi və ifadə üsullarına nəzər salsaq 50-ci illərdən sonra o, mənzərələrində sadə realizmdən romantik-ekspressiv ab-havaya keçid etmişdir. Buna nümunə kimi "Çay qırağında" əsərində dövrünün realist ifadə formalarını dəqiqliklə, sərrast şəkildə ifadə etsə də, sonrakı mənzərələrdə ekspressiv formaları üstün tutmasını, daha böyük yaxmalardan istifadə etməsini, romantik görünüşlə əvəz etməsini göstərmək olar. Bu isə onun üslub və forma baxımından inkişaf yolunu əks etdirir.

Baba Əliyev mənzərə janrında olan əsərlərində Azərbaycan təbiətinin füsunkar guşələrini, dəniz sahillərini, dağları, səfalı çölləri sənət vasitəsilə təqdim etmişdir. Bu isə öz növbəsində, milli təbiət estetikasının təsviri sənətdə möhkəmlənməsinə xidmət etmişdir.

Baba Əliyev mənzərə janrında yaratdığı əsərlərlə Azərbaycan rəngkarlığında həm təbiətin iç dünyasını, həm də müasir mənzərə elementlərini (sənaye mühiti kimi) vizuallaşdırmışdır. Onun əsərlərində rəng, kompozisiya və ruh yüksəkliyi bir araya gəlir; realist başlanğıcdan romantik-ekspressiv ifadəyə keçid isə onun yaradıcılıq yolunun mühüm mərhələlərindən biridir. Beləliklə, Baba Əliyevin mənzərə janrında yaratdığı əsərlər yalnız təsviri sənət nümunəsi deyil, həm də Azərbaycan təsviri mədəniyyətinin mühüm parçasıdır.

Baba Əliyev mənzərə janrına realist yanaşmaqla başlayıb, sonralar əsərlərində romantik və ekspressiv elementlərdən istifadə etməyə başlamışdır. Onun mənzərələri təkcə təbiətin gözəlliyini əks etdirmir, həm də müəyyən bir əhval-ruhiyyəni, duyğunu izah edir. Bu, xüsusilə çöl və dağ mənzərələrində açıq görünür: rənglərin seçimi, işıqlandırma və kompozisiya tamaşaçını mənzərənin içərisinə çəkir.

Bu ifadə onun rəng seçimində realizm və təbii görüntüyə üstünlük verdiyini göstərir, lakin bu o demək deyil ki, rənglər sırf neytral, sadədir. Əksinə, o, janrın tələblərinə uyğun olaraq rəngi həm təbiət görüntüsündə, həm emosional atmosfer yaratmaq üçün istifadə etmişdir.

Baba Əliyev mənzərə janrında Azərbaycan rəngkarlığının inkişafına əhəmiyyətli töhfələr vermişdir. Onun əsərləri milli təbiət estetikası ilə zənginləşmiş, realist ifadədən romantik ekspressiv üsluba keçidi göstərmişdir. Mənzərələrində həm təbiətin gözəlliyi, həm də insan həyatının müxtəlif sahələri təsvir olunur ki, bu da əsərlərin sosial və mədəni əhəmiyyətini artırır.

Baba Əliyevin mənzərə janrında yaratdığı əsərlər Azərbaycan rəngkarlığında həm estetik, həm ideya-məzmunlu yüksəlişin nümunələridir. Onun yaradıcılığı mənzərə janrının sadəcə gözəllik və dekorativlik çərçivəsində qalmasına yox, dərin səviyyədə düşünülmüş görüntü, məkan və emosiya quruluşuna çevrilməsinə töhfə vermişdir. Realist başlanğıc mərhələsindən romantik-ekspressiv üsluba keçid onun fərdi sənət yolunu və Azərbaycan təsviri sənətində məkan-təbii peyzaj anlayışının zənginləşməsini göstərir.

## Ədəbiyyat siyahısı

1. Əfəndiyev T., Quliyeva G.; Kamil Xanlarov, 1915-1996: rəngkarlıq [İzomaterial]; Baba Əliyev, 1915-1990: rəngkarlıq; Nəcəfqulu İsmaylov, 1923-1990: rəngkarlıq. Bakı: Sərvət, [Şərq-Qərb], 2013. s. 104.
2. Şəxsi arxivindən əldə olunan materiallar.
3. Габибов Н. Выставка произведений заслуженного деятеля искусств Азербайджанской ССР Баба Алиева. Каталог. Баку – 1966.
4. Габибов Н. Д., Наджафов М. Н. Искусство Советского Азербайджана. Живопись, скульптура, графика / Н. Д. Габибов, М. Н. Наджафов. – М:, – Искусство. 1960. с – 200.
5. Искусство Советского Азербайджана. Живопись, графика, скульптура (под общей редакцией Н. А. Езерской и др.). – М:, - Советский художник. 1970. – 207 с.

**Leyla Abushova Ramiz gizi**

## Artistic and Aesthetic Features of the Landscape Genre in the Works of People's Artist Baba Aliyev

**Summary:** The landscape works created by Baba Aliyev represent one of the important stages in the development of Azerbaijani visual art in the twentieth century. His paintings not only convey visual beauty but also reflect national culture and a deep love for nature expressed through artistic means.

Baba Aliyev stands out for his distinctive artistic style: harmonious color transitions, the ability to capture the atmosphere created by natural light, and a compositional integrity that adds particular depth to his landscapes. The artist subtly observes and with great artistic sensitivity conveys specific moments in nature, the sunset, the calmness of the steppe, the grandeur of the mountains, or the movement of sea waves leaving an indelible impression on the viewer. In this sense, his landscapes are rare examples that combine both the precision of realistic depiction and a romantic-expressive mood.

In Baba Aliyev’s work, alongside the poetic image of nature, elements of human activity and modern life are also reflected. His landscapes embody a harmony of technical mastery and emotional richness, holding an important place in the development of Azerbaijani painting. The artist contributed to the formation of a new aesthetic vision by presenting the landscape not merely as a decorative depiction, but as an emotional and artistic space. These works continue to retain their value as unique examples of fine art and as an important part of the national cultural heritage.

**Key words:** Baba Aliyev, artist, artistic style, depiction, landscape genre, nature, realism, painting, composition, interaction of light and color.

**Лейла Абушова Рамиз кызы**

## Художественно-эстетические особенности жанра пейзажа в творчестве Народного художника Баба Алиева

**Резюме:** Созданные Баба Алиевым произведения в жанре пейзажа составляют одну из важных ступеней развития азербайджанского изобразительного искусства XX века. Его работы представляют не только визуальную красоту, но и отражают национальную культуру и любовь к природе, выраженные средствами искусства.

Баба Алиев выделяется своим самобытным художественным стилем: гармоничными цветовыми переходами, умением передать атмосферу, создаваемую светом в природе, а также целостностью композиционного построения, что придаёт его пейзажам особую глубину. Художник тонко фиксирует и с большим художественным чувством передаёт определённый момент природы, закат солнца, спокойствие степи, величие гор или движение морской волны, оставляя в памяти зрителя неизгладимое впечатление. В этом отношении его пейзажи являются редкими примерами, объединяющими точность реалистического изображения и романтико-экспрессивное настроение.

В творчестве Баба Алиева наряду с поэтическим образом природы отражаются также элементы человеческой деятельности и современной жизни. Его пейзажи воплощают гармонию технического мастерства и эмоционального богатства, занимая важное место в развитии азербайджанской живописи. Художник внёс вклад в формирование новой эстетической мысли, представив пейзаж не только как декоративное изображение, но как эмоционально-художественное пространство. Эти произведения продолжают сохранять свою ценность как образцы искусства и важная часть национального культурного наследия.

**Ключевые слова:** Баба Алиев, художник, художественный стиль, изображение, жанр пейзажа, природа, реализм, живопись, композиция, взаимодействие света и цвета.

Məqalənin redaksiyaya daxilolma tarixi: 28.11.2025
Məqalənin çapa qəbul olunma tarixi: 03.12.2025